

UOT: 338.43:336.563.1 (479.24)

# AQRAR SAHƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN MÜASİR VƏZİYYƏTİ

**Heydərova Kufiyə Əli-Heydər qızı**

**doktorant**

İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu

AZ1011, Bakı ş., H.Zərdabi pros., 88a.

heydarova.kufiya@mail.ru

səh. 123-136

## Xülasə

*Tədqiqatın məqsədi* – aqrar sahənin maliyyələşdirilməsinin cari dövrdə təhlili, mövcud problemlərin təyini və həlli istiqamətlərinin öyrənilməsidir.

*Tədqiqatın metodologiyası* – müqayisəli təhlil, balans metodu, sorğu, induksiya metodu.

*Tədqiqatın nəticələri* - aqrar sahədə (*Gəncə-Qazax iqtisadi rayonu timsalında*) təsərrüfat subyektlərinin maliyyə resurslarından, ələxsus maliyyə yardımlarından istifadə imkanları araşdırılmış və aparılan sorğunun nəticələri əsasında balans metodu ilə iqtisadi rayonun dövlət yardımlarından faydalanma göstəriciləri hesablanmışdır.

*Tədqiqatın məhdudiyyətləri* – Gəncə-Qazax iqtisadi rayonu üzrə bütün mühüm təsərrüfat subyektlərinin sorğuya cəlb etmə imkanının olmaması.

*Tədqiqatın praktik əhəmiyyəti* – hesablanmış indeksin respublikanın digər iqtisadi rayonlar üzrə də müvafiq təhlil və araşdırmalarda istifadə mümkünlüyü.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – balans metodu üzrə aparılan sorğu ilə aqrar sahədə (*Gəncə-Qazax iqtisadi rayonu timsalında*) təsərrüfat subyektlərinin maliyyə resurslarından istifadə imkanlarının təhlili.

**Açar sözlər:** *maliyyə resursları, aqrar sahə, sorğu, balans metodu.*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Azərbaycan Respublikasının sosial-iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb etdiyi üçün qeyri-neft sektorunun prioritet sahələrindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektoru ötən dövr ərzində iqtisadiyyatın əsas sektorlarından biri kimi müəyyənləşdirilmiş və görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün əlverişli şərait yaradılmışdır [1].

Aqrar sahədə dayanıqlı inkişafın, gələcəkdə maliyyə resurslarının diversifikasiyasının təmin edilməsi, rəqabət qabiliyyətinin artırılması məqsədilə istehsalçıların maliyyə resursları ilə təminat səviyyəsinin öyrənilməsi, cari vəziyyətin təhlili və gələcəkdə təminat səviyyəsinin artırılması vacib məsələlərdəndir. Məhdud resurslar həcmində aqrar intensivləşdirmə imkanları çərçivəsində bu sahədə davamlı iqtisadi artımın təmin olunması baxımından prioritetlərin düzgün müəyyən edilməsi çox mühüm məsələlərdən birini təşkil edir. Aqrar sahənin bilavasitə inkişafında əsas məqamlardan birinin maliyyə təminatı olduğunu nəzərə alaraq diqqətimizi Azərbaycan Respublikasında aqrar sektorun maliyyələşdirilməsinin cari dövrdəki təhlilinə, bu sahədəki problemlərin təyini və həlli istiqamətlərinin öyrənilməsinə yönəltmişik. Eyni zamanda, tədqiqatın ümumilikdə bütün iqtisadi rayonlarda keçirilmə imkanın məhdud olmasını nəzərə alaraq, orta göstəricinin alınması və ümumi fikrin formalaşdırılması (*belə ki, ən inkişaf etmiş rayonun seçilməsi şişirdilmiş, ən zəif regionun seçilməsi kiçildilmiş nəticənin əldə edilməsinə səbəb olacaqdı*) məqsədilə bir çox parametrlərinə görə - ələxsus aqrar sahənin inkişafına görə ölkə üzrə ikinci yer tutan Gəncə-Qazax iqtisadi rayonu timsalında araşdırılmasına üstünlük verilmişdir. Ümumilikdə tədqiqat işində aparılan təhlillər nəticəsində təsərrüfat subyektlərinin maliyyə vəziyyətinin hansı səviyyədə olması, dövlət tərəfindən edilən maliyyə yardımlarından nə dərəcədə yararlanması, bu şərtlərdən razılıq səviyyəsi və əlavə tədbirlər qismində hansı işlərin görülməsinin onlar tərəfdən daha məqbul qarşılanacağı fikirlərini formalaşdırmağa kömək edəcəkdir.

## 2. Aqrar sahənin maliyyələşdirilməsində dövlət dəstəyi

Ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə ən böyük potensiala malik sahələrindən biri kənd təsərrüfatıdır. Hazırda respublikada aqrar sektorun maliyyələşdirilməsində üç əsas mənbəyin mövcud olmasına baxmayaraq, kənd təsərrüfatında maliyyə təminatının möhkəmləndirilməsi və artırılması təsərrüfat subyektlərinin daxili mənbələrdən əldə etdikləri vəsaitlər hesabına ödənilə bilmədiyindən, eyni zamanda riskli sahə olduğu üçün kommersiya banklarının maraq dairəsindən kənarda qaldığından, kənd təsərrüfatının dayanıqlı inkişafı bilavasitə dövlət dəstəyinə əsaslanır.

1995-ci ildən başlayan aqrar islahatlar son 10 ildə demək olar ki, yeni inkişaf

mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikası prezidenti cənab İlham Əliyev tərəfindən kənd təsərrüfatının dövlət dəstəyinin göstərilməsinə dair çoxsaylı fərman və sərəncamlar imzalanmış, bu sahədə bir sıra digər normativ hüquqi aktlar da qəbul olunmuşdur. Belə ki, aqrar sektorun inkişafı və dirçəlməsi məqsədilə bir sıra dövlət proqramları qəbul edilmişdir. Həmin dövlət proqramları çərçivəsində əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı, yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, ərzaq təhlükəsizliyi, üzümçülüyün inkişafı tədbirləri həyata keçirilmiş, tingçiliyin inkişafı üçün yeni fondun yaradılması, aqrolizinq fəaliyyəti, dövlət tərəfindən yanacaq, motor yağları və əkin üçün subsidiyalar ayrılması ilə bağlı bir sıra sərəncamlar imzalanmışdır.

Son illər ərzində aqrar sahədə məhsul istehsalçılarının müvafiq istehsal vasitələri ilə təminatının gücləndirilməsi və onların gəlir əldə etmək imkanlarının yaxşılaşdırılması məqsədilə edilən maliyyə yardımları sistemləşdirilmiş formasını – Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi çərçivəsində aşağıdakı şəkildən daha aydın görmək mümkündür (*şəkil 1*).

| Ümumi sahə üzrə dövlət dəstəyi tədbirləri | Bitkiçilik sahəsi üzrə dövlət dəstəyi tədbirləri | Heyvandarlıq sahəsi üzrə dövlət dəstəyi tədbirləri |
|---|---|---|
| ■Kənd təsərrüfatı vergilərdən azaddır;<br>■istehsalçılara büdcədən güzəştli kreditlər verilir;<br>■kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sənayesi üzrə idxal olunan əksər istehsal vasitələrinə gömrük güzəştləri tətbiq edilir;<br>■"Aqrolizinq" ASC tərəfindən satılan kənd təsərrüfatı maşın, texnika və avadanlıqlarının dəyərinin 40 faizi büdcədən ödənilir və onlar lizinq yolu ilə satılır;<br>■kənd təsərrüfatı əmlakının və müəyyən edilmiş sığorta hadisələrinin sığortalanması üzrə hesablanmış sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. | ■Kənd təsərrüfatı məhsullarının istehsalı üçün sərf edilən yanacaq və motor yağlarının dəyərinin 50 faizinin dövlət tərəfindən ödənilməsinin təmin edilməsi məqsədilə əkin sahələrinin hər hektarına (*o cümlədən təkrar əkinlərə*) görə 50 manat subsidiya verilir;<br>■emal müəssisələrinə satılan pambığın hər kiloqramı üçün 0,1 manat, quru tütünün hər kiloqramı üçün 0,1 manat, yaş tütünün isə hər 10 kiloqramı üçün 0,05 manat subsidiya verilir;<br>■kənd təsərrüfatı istehsalı ilə məşğul olanlara hər1000 m3 suvarma suyunun qiyməti 0,5 manat müəyyən edilmişdir;<br>■"Aqrolizinq" ASC tərəfindən satılan müasir suvarma avadanlıqlarının dəyərinin 40 faizi büdcədən ödənilir;<br>■gübrələrin, pestisidlərin və sənaye üsulu ilə istehsal edilmiş biohumusun dəyərinin 70 faizi dövlət büdcəsindən ödənilir;<br>■toxum və ting istehsalına və satışına görə subsidiya verilir;<br>■kənd təsərrüfatı bitkilərinin karantin tətbiq edilən və xüsusi təhlükəli zərərvericilərinə qarşı mübarizə tədbirləri dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. | ■"Aqrolizinq" ASC tərəfindən idxal edilən cins malların dəyərinin 50 faizi büdcədən ödənilir və lizinq yolu ilə satılır;<br>■süni mayalanma yolu ilə alınan hər baş buzova görə 100 manat subsidiya verilir;<br>■süni mayalandırma xidməti üzrə infrastruktur dövlət tərəfindən təmin edilir;<br>■bütün növ kənd təsərrüfatı heyvanları və quşları arasında heyvanların xüsusi təhlükəli yoluxucuxəstəliklərinə (*13 növ xəstəliyə*) qarşı aparılan müalicə-profilaktika və diaqnostika tədbirləri dövlət tərəfindən təmin edilir. |

**Şəkil 1. Kənd təsərrüfatı sahəsinə göstərilən dövlət dəstəyi tədbirləri**

*Mənbə: Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi.*

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsində göstərilir ki: İqtisadi tərəqqiyə təkan verən güzəştli kreditlərin 60-65%-ni əhatə edən aqrar sahəyə yönələn kredit qoyuluşları 2005-ci ildə 97,6 milyon manat olduğu halda, 2015-ci ildə 508,1 milyon manata qədər yüksəlmiş, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə ayrılmış güzəştli kreditlərin həcmi bu illər ərzində 18,1 dəfə artmışdır. Eyni zamanda "Aqrolizinq" ASC tərəfindən 1869 ədəd taxılyığan kombayn, 7265 ədəd traktor və 14507 ədəd digər kənd təsərrüfatı texnikası alınmış, bunlardan 18090 ədəd kənd təsərrüfatı texnikası, o cümlədən 723 ədəd taxılyığan kombayn, 6305 ədəd traktor və 11062 ədəd digər kənd təsərrüfatı texnikası 10644 hüquqi və fiziki şəxsə lizinqə verilmiş və ya lizinq yolu ilə satılmışdır. Həmçinin "Aqrolizinq" ASC tərəfindən fermerlərə güzəştli şərtlərlə satılan gübrənin ümumi həcmi 68,4 min tondan 124,6 min tona qədər artırılmış,bu isə öz növbəsində ölkəyə idxal olunan gübrələrin həcmini iki dəfə, əkin sahəsi isə 296,3 min hektardan 727,2 min hektara, istehsalçılarının sayını isə 40,2 min nəfərdən 89,9 min nəfərə qədər artmışdır. [2, s.21, 24, 38].

Statistik göstəriciləri diqqətlə nəzərdən keçirdikdə istər bilavasitə pul vəsaitləri, istərsə də avadanlığın lizinqə verilməsi, yaxud güzəştli gübrə təchizatı olmasından asılı olmayaraq fermerlərə dövlət dəstəyinin artan dinamika, inkişaf edən xətlə yüksəldiyini tam əminliklə qeyd edə bilərik. Belə ki, 2005 və 2015-ci illəri müqayisə etdikdə aqrar sahəyə ayrılan güzəştli kreditlərin həcminin 5,2 dəfə, güzəştli şərtlərlə satılan gübrənin həcminin 1,8 dəfə artdığının, kənd təsərrüfatının texnika ilə təminatının 1,6 dəfə yaxşılaşdığının şahidi olarıq.

Ən nəhayət, 11 aprel 2017-ci il kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin "Maliyyəyə çıxışın asanlaşdırılması" sərlövhəli 3-cü strateji hədəfində nəzərə tutulmuş prioritetlərin icrasının təmin etmək məqsədilə tədbirlər planının hazırlanmasını nəzərdə tutur. Tədbirlər planı özündə aqrar sahədə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsini, maliyyə resurslarına tələbatın təyin edilməsini, innovativ və girovsuz kreditlərin təmini məqsədilə kredit zəmanət fondunun və sığorta fondunun yaradılmasını, sığorta sistemi və risklərin idarə olunması mexanizminin, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsini, eyni zamanda kredit təşkilatlarının aqrar sektorun kreditləşdirilməsinə cəlb edilməsini, bu sahəyə yerli və xarici investisiyanın cəlbini nəzərdə tutur.

Yuxarıda sadalanan tədbirlər ölkədə aqrar sahənin inkişafına təkan versə də, bu sahənin maliyyələşdirilməsində bütün problemlərin həll olunması ilə nəticələndiyini demək çətindir. Bu baxımdan mövcud problemlərin araşdırılması, qeyd edilən yardımlardan təsərrüfat subyektlərinin nə dərəcədə yararlanması, fikrimizcə,

öyrənilməsi prioritet təşkil edən məsələrdəndir. Həyata keçirilən tədbirlər nəticəsində dövlət dəstəyinin bütün iqtisadi rayonları əhatə etməsinə baxmayaraq, iqtisadi rayonun özünün bir sıra amillərdən asılı olaraq bu yardımlardan faydalanma imkanlarının fərqliliyini nəzərə alaraq aqrar sektorda maliyyələşdirmənin müasir vəziyyətinin Gəncə-Qazax iqtisadi rayonunu timsalında təhlil edilməsi, fikrimizcə, daha məqsədəuyğun olardı. Belə ki, bu iqtisadi rayon bir sıra göstəricilərinə görə respublika üzrə ikinci yeri tutur, eyni zamanda həm bitkiçilik, həm də heyvandarlıq təsərrüfatları kifayət qədər geniş vüsət almış rayondur.

## 3. Aqrar sektorda maliyyələşdirmənin müasir vəziyyətinin təhlili
*(Gəncə-Qazax iqtisadi rayonunun timsalında)*

### 3.1. Sorğunun nəticəsinin təhlili

Azərbaycan Respublikasında aqrar sahəyə davamlı dəstəyin, maliyyə yardımlarının geniş yayıldığı və ölkənin bütün iqtisadi rayonlarına şamil olunduğunu nəzərə alaraq, bu sahədə maliyyələşmənin cari vəziyyətini, təsərrüfat subyektlərinin maliyyə resurslarından nə dərəcədə yararlana bildiklərini, problemlərini, inkişafa nail olmaq üçün daha hansı dəstəyə ehtiyacları olduqlarını daha dolğun öyrənmək məqsədilə aqrar sektorların şöbə, bölmə rəhbərləri ilə görüşmüş, onların vəziyyətə münasibətlərini öyrənmiş, daha sonra fermerlərin, kənd təsərrüfatı sahiblərinin, fərdi sahibkarlar arasında sorğu keçirmiş, yerlərdəki problemlərə, maliyyə çətinliklərinə onların aspektindən yanaşmağa çalışmışıq. Belə ki, sorğu iki hissədən ibarət olmuş, 12 sualdan ibarət olan birinci hissədə aqrar sahəyə edilən maliyyə yardımlarından necə və hansı səviyyədə məlumatlı olduqları, bu yardımlardan nə dərəcədə yararlandıqları, hansı kredit qurumları vasitəsilə və hansı şərtlər altında güzəştli kreditlərdən yararlandıqları, lizinq xidmətindən nə dərəcədə yararlana bildikləri, öz maliyyə imkanlarını necə qiymətləndirdikləri, maliyyələşmə zamanı yaranan çətinliklər və əlavə hansı maliyyə yardımlarının edilməsini daha məqsədəuyğun hesab etdiklərini təhlil etməyə çalışmışıq (*Əlavə № 1 və Əlavə № 2*).

Samux, Göygöl, Şəmkir, Daşkəsən, Goranboy rayonlarında sorğu aparmaq məqsədilə respondentlərlə görüşümüz zamanı 85 respodentin arasında keçirilmiş sorğunun nəticələrinin təhlili növbəti fikirləri söyləməyə imkan vermişdir.

Sorğu aparılmış şəxslər arasında 46,5%-i maliyyə yardımlarından hərtərəfli məlumatlı, 45%-i kifayət qədər də olmasa, əsasən kredit və subsidiyalardan məlumatlı olduğunu söyləmişlər ki, bunlardan da 36,6%-i dövlət orqanları nümayəndələrinin mütəmadi görüşlər keçirdiyini və onları məlumatlandırdığını düşünür, 56,3%-i KİV-ləri vasitəsilə məlumatlanır, 7,1%-i məlumat əldə etmək imkanlarının məhdud olmasını göstərmişlər. Eyni zamanda respondentlərin 8,5%-i isə istənilən növ yardımlardan məlumatsız olduqlarını bildirmişlər. Ümumilikdə maliyyə yardımlarından yararlanma səviyyəsinin qənaətbəxş olduğunu söyləmək

mümkün olsa da, əksəriyyət şərtlərin o qədər də əlverişli olduğunu hesab etmir. Belə ki, respondentlərin 69%-i dövlətin maliyyə yardımlarından istifadə etmişdir, bunlardan 55,1%-ini şərtlər qane edib, 44,9%-ini şərtlər qane etməmişdir. Respondentlərin 11,3%-i maliyyə yardımı almaq məqsədilə müraciət etsə də, onlara maliyyə yardımları göstərilməmişdir. 19,7% ya ehtiyacın olmaması və ya inamın olmaması səbəbindən ümumiyyətlə müraciət etmədiklərini bildirmişdilər. Təsərrüfat sahiblərinin Dövlət tərəfindən göstərilən istənilən növ yardımların əlverişli olub olmaması məsələsinə respondentlərin 33,8% müsbət, 66,2% mənfi cavab vermişdir.

Hal-hazırda dövlət tərəfindən bir sıra qurumlar vasitəsilə güzəştli şərtlərlə kredit verildiyi nəzərə alaraq sorğuda bu istiqamətdə bir sıra suallar qoyulmuşdur. Əksəriyyət kreditlərdən yararlandıqlarını, bunlardan da 36,7%-i Sahibkarlığa Kömək Milli Fondunun, 56,3%-i Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin, 4,2% kommersiya banklarının, 2,8%-i digər qurumların verdiyi kreditlərin şərtlərini daha əlverişli saydıqlarını söylədilər. Onu da qeyd edək ki, 90,1% respondent kredit şərtlərində faizin endirilməsini, 8,5% müddətin və güzəşt müddətinin uzadılması məsələsini, 1,4% kredit verilməsi zamanı sahibkarın şəxsi vəsaitinin 30%-dən endirilməsini və bu şərtin ümumilikdə olmamasını daha məqsədəuyğun saydıqlarını bildirmişlər. Aqrar sahəyə subsidiya dəstəyinin kifayət qədər olduğunu nəzərə alaraq, bu sahədəki problemlərlə maraqlandıq, yaralanma faizinə diqqəti cəlb etdik. Respondentlərin 63,4%-i əsasən yanacağa görə və 100 manatdan yuxarı olmaqla subsidiyalardan yararlandıqlarını bildirsələr də, 36,6%-i isə yararlanmadıqlarını söyləmişlər. Subsidiyalardan yararlanmadıqlarını söyləyənlərin az bir qismi ümumiyyətlə müraciət etmədiklərini, əsas hissəsi isə onlara məxsus torpaqların sənədlərinin olmaması, yaxud natamam olması səbəbindən subsidiyalardan faydalana bilmədiklərini göstərmişlər. Lizinq xidmətinə gəlincə respondentlərin 36,6%-i lizinqdən - əsasən texnikanın lizinqindən yararlanmış, 63,4%-i isə şərtləri sərt saymasa da, lizinq götürmək imkanlarının olmadığını yaxud onlar üçün lizinqə texnikanın götürülməsini əlverişli saymırlar. Burada əsas problem illər üzrə əkin məhsulunun dəyişməsi bununla da hər dəfə fərqli texnikaya ehtiyacın olması, daha çox aqroservis xidmətinə ehtiyacın olması söylənilmişdir. Damazlıq heyvanların lizinqinə gəlincə əsasən fərqli növ istənilib, fərqli növün gətirilməsi fermerlər tərəfindən müsbət qarşılanmır. Tələbatın əvvəlcədən öyrənilməsi hansı texnikanın və hansı növ heyvanların tələb olunması siyahıya alınması daha məqsədəuyğun olardı. Respondentlərin 13,3%-i şərtlərin onları qane etmədiklərindən müraciət etmədiklərini söyləmişlər. Özlərinin maliyyə imkanlarının respondentlərin əksəriyyəti aşağı qiymətləndirmiş, yalnız 26,8%-i öz maliyyə imkanlarını qənaətbəxş hesab etmiş, 66,2% respondent maliyyə imkanlarını aşağı qiymətləndirmiş və qeyri qənaətbəxş hesab etmişlər. Respondentlərin 7%-i maliyyə imkanlarını qiymətləndirməkdə çətinlik çəkmiş, sorğu sualını cavabsız qoymağı üstün tutmuşlar. İnkişafdakı problemlərinə gəlincə əksəriyyət, 84,6% maliyyə çatışmazlığını əsas

problem kimi qabartmışlar. Respondentlərin 5,6%-i ixtisaslı kadr çatışmazlığı, 1,4%-i məlumatsızlığı, 1,4%-i satış imkanlarının məhdudluğunu əsas problem kimi göstərmişlər. Respondentlərin 7%-i problemin nədə olduğunu söyləməyə çətinlik çəkmişlər. Nəhayət, respondentlərin hansı maliyyə köməkliyi və hansı şərtlərlə maliyyə köməkliyi edilsə, təsərrüfatınızın inkişafına səbəb olar sualına 77,5%-i sırf faizlərin endirilməsi, kredit şərtlərinin yumşaldılması, 7%-i subsidiyaların artırılması, 2,8%-i suvarma probleminin aradan qaldırılması, 2,8%-i ümumi maliyyə yardımlarının edilməsinin əsas olduğunu vurğulamışdır. Respondentlərin 11,3%-i ümumiyyətlə bu sualı cavabsız qoymağı üstün tutmuşlar. Bazara çıxış imkanlarının qiymətləndirilməsinə gəlincə, əksəriyyət daxili bazarlarda məsafə uzaqlığını, xarici bazarlarda isə gömrükdə süni problemlərin yaradılması, emalın olmaması səbəbindən bazara məhsulu çıxara bilməmələrindən şikayətlənmişlər. Eyni zamanda sorğu nəticəsində bir qismin xarici bazarlara çıxmaqda maraqlı olmadıqlarını söyləmək mümkündür.

Anket sorğusunun təhlilini apardıqdan sonra cədvəl şəklində tərtib etdik ki, söylənilən fikirləri cədvəldən daha asan görmək mümkün olsun (*Cədvəl 1*).

**Cədvəl 1. Təsərrüfat subyektlərinin maliyyə yardımlarından yararlanma göstəriciləri** *(%-lə)*

| | Variantlar | | Sorğudakı payı %-lə |
|---|---|---|---|
| | Ətraflı | | 46,5 |
| | Qismən | | 45 |
| | Məlumatsız | | 8,5 |
| | Dövlət orqanlarının nümayəndələri | | 36,6 |
| | KİV-lər | | 56,3 |
| | Məlumat əldə edə bilmir | | 7,1 |
| | İstifadə edib | Qane edib | 38 |
| | | Qane etməyib | 31 |
| | İstifadə etməyib | Müraciət edib verilməyib | 11,3 |
| | | Müraciət etməyib | 19,7 |
| | Əlverişlidir | | 33,8 |
| | Əlverişsizdir | | 66,2 |
| | Sahibkarlığa Kömək Milli Fondu | | 36,7 |
| | Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti | | 56,3 |
| | Kommersiya bankları | | 4,2 |
| | Digər | | 2,8 |

**Cədvəl 1-in davamı.**

| | | | |
|---|---|---|---|
| | Faizin endirilməsi | | 90,1 |
| | Müddətin uzadılması | | 8,5 |
| | Şəxsi vəsaitin 30%-dən endirilməsi | | 1,4 |
| | Bəli | Qane edib | 63,4 |
| | | Qane etməyib | 0 |
| | Xeyr | Qane edib | 36,6 |
| | | Qane etməyib | 0 |
| | Bəli | Qane edib | 36,6 |
| | | Qane etməyib | 0 |
| | Xeyr | Qane edib | 50,1 |
| | | Qane etməyib | 13,3 |
| | Qənaətbəxş | | 26,8 |
| | Qeyri-qənaətbəxş | | 66,2 |
| | Cavabsız | | 7 |
| | Maliyyə çatışmazlığı | | 84,6 |
| | İxtisaslı kadr çatışmazlığı | | 5,6 |
| | Məlumatsızlıq | | 1,4 |
| | Digər | | 1,4 |
| | Cavabsız | | 7 |

*Mənbə: Aparılan sorğu əsasında müəllif tərəfindən hazırlanmışdır.*

### 3.2. Qiymətləndirmə sorğusunun balans metodu ilə hesablanması

Sorğu anketinin ikinci hissəsində qoyulmuş 11 sual əsasında göstərilən maliyyə yardımlarından (*subsidiya, lizinq, SKMF kreditləri, KTN Dövlət Xidməti kreditləri və s.*) yararlanma imkanları təhlil edilmiş, balans metodu ilə bu iqtisadi rayon üçün yararlanma indeksi hesablanmışdır. Sorğu əsasən maliyyə yardımlarından istifadə imkanlarının dəyişmə tendensiyasının, təsərrüfat sahiblərinin gözləntilərinin hesablanmasına xidmət etmişdir. Balans metodunu izah etməmişdən öncə onu qeyd edək bu metodla indeksin hesablanması beynəlxalq səviyyədə keyfiyyətin qiymətləndirilməsi məqsədilə bir sıra sahələrdə tətbiq edilir.

#### *3.2.1. Balans metodu*

İndeksin hesablanması üçün balans metodundan istifadə edilmişdir. Bu metodla indeks hesablanarkən müsbət cavabların toplam faizindən mənfi cavabların toplam faizi çıxılır. [3, s.32].

İndi də indeksin hesablanmasına nəzər yetirək.

$$BMİ = \sum_{j=1}^{m}(P_j^f - P_j^u) \times 100 \qquad (1)$$

Burada:
$P^f_j$ – j-ci suala verilmiş müsbət cavabların toplam faizi;
$P^u_j$ – j-ci suala verilmiş mənfi cavabların toplam faizi;
$m$ – BMİ-nin hesablanmasında istifadə olunan sualların sayı.

Balans metodunun hesablanmasına fərqli mövqedən də yanaşmaq mümkündür. Belə ki, hər cavab üçün qabaqcadan müəyyən olunmuş bir qiymət verilir və indeks bu qiymətlərin əsasında hesablanır. Məsələn: tutaq ki, anketdə soruşulmuş sualların üç cavabı var. Onda müsbət tendensiyalı cavab üçün 1, neytral tendensiyalı cavab üçün 0, mənfi tendensiyalı cavab üçün -1 qiyməti verilir və aşağıdakı kimi hesablanır [3, s.33, 38, 44].

$$BMİ = \sum_{j=1}^{m}\sum_{i=1}^{n}\frac{x_{ij}}{n}(100) \qquad (2)$$

$x_{ij}$ = 1 əgər j-ci suala i-ci respondent müsbət cavab vermişdirsə;
$x_{ij}$ = 0 əgər j-ci suala i-ci respondent neytral cavab vermişdirsə;
$x_{ij}$ = -1 əgər j-ci suala i-ci respondent mənfi cavab vermişdirsə;
$n$ – respondentlərin sayı.

Onu da qeyd edək ki, əgər anketdəki sualların beş cavabı olarsa, qiymətləndirmə müvafiq olaraq 1, 0.5, 0, -0.5, -1 kimi aparılır. Məsələn, çox yaxşı, yaxşı, normal, pis, çox pis cavabları olan bir sualın dəyərləndirilməsində müvafiq olaraq 1 çox yaxşı, -1 çox pis cavabının qiyməti olacaqdır. Faiz olaraq götürüldüyündə çox yaxşı və yaxşı cavablarının toplam faizi müsbət faiz kimi, pis və çox pis cavablarının toplam faizi isə mənfi faiz kimi götürülür. Balans metodunda indekslərin qiymətlər oblastı {-100; +100} aralığında dəyişir. [3, s.32, 33].

Əgər, $İ < 0$ olarsa, mənfi; $İ = 0$ olarsa, normal; $İ > 0$ olarsa, bu müsbət hal kimi qiymətləndirilir.[3, s.32]

### *3.2.2.Təsərrüfat subyektlərinin balans metoduna əsasən maliyyə resurslarından istifadə imkanlarından yararlanma indeksinin hesablanması*

Qiymətləndirmə sorğusunun balans metodu ilə dəqiqliklə hesablamamışdan əvvəl ilk növbədə sorğunun nəticələrini cədvəldə faiz nisbətlərində nəzərdən keçirək (Cədvəl 2). Cədvəlin tərtib edilməsi zamanı 3 cavablı sualların cavabları mənfi hal, müsbət hal və neytral hal kimi dəyərləndirilmiş, 5 cavablı suallarda -0,5 və 0,5 qiymətləri əlavə edilərək uyğun olaraq qismən mənfi və qismən müsbət halları da qeydə alınmışdır.

### Cədvəl 2. Qiymətləndirmə sorğusunun nəticələrinin faizlə (%) ifadəsi

| %-lə | -1 | -0,5 | 0 | 0,5 | 1 | fərq |
|---|---|---|---|---|---|---|
| 1 | 33,8 | | 49,3 | | 16,9 | -16,9 |
| 2 | 53,5 | | 26,7 | | 19,8 | -33,7 |
| 3 | 66,2 | | 28,2 | | 5,6 | -60,6 |
| 4 | 14,1 | 7 | 16,9 | | 62 | 44,4 |
| 5 | 66,2 | | 23,9 | | 9,9 | -56,3 |
| 6 | 25,4 | | 59,1 | | 15,5 | -9,9 |
| 7 | 19,7 | | 43,7 | | 36,6 | 16,9 |
| 8 | | 12,7 | 38 | 49,3 | | 36,6 |
| 9 | 4,2 | 57,7 | 29,6 | 8,5 | | -28,9 |
| 10 | | 14 | 43,7 | 42,3 | | 28,3 |
| 11 | 16,9 | | 54,9 | | 28,2 | 11,3 |
| Yekun | | | | | | -6,24545 |

*Mənbə: Balans metoduna tətbiq etməklə aparılan sorğunun nəticələri əsasında müəllif tərəfindən hazırlanmışdır.*

İndi isə həmin sorğunun balans metodu vasitəsilə hesablanmış nəticəsini nəzərdən keçirək. [{100;5} – müsbət hal; {5;-5}- neytral hal; {-5;-100}-mənfi hal]

### Cədvəl 3. Balans metodu ilə maliyyə yardımlarından yararlanma indeksinin hesablanması

| | -1 | -0,5 | 0 | 0,5 | 1 | Balans | Index |
|---|---|---|---|---|---|---|---|
| 1 | 0,3 | | 0,5 | | 0,2 | -0,17 | -17 |
| 2 | 0,5 | | 0,3 | | 0,2 | -0,34 | -34 |
| 3 | 0,7 | | 0,3 | | 0,1 | -0,61 | -61 |
| 4 | 0,1 | 0,0 | 0,2 | | 0,6 | 0,48 | 48 |
| 5 | 0,7 | | 0,2 | | 0,1 | -0,56 | -56 |
| 6 | 0,3 | | 0,6 | | 0,2 | -0,10 | -10 |
| 7 | 0,2 | | 0,4 | | 0,4 | 0,17 | 17 |
| 8 | | 0,1 | 0,4 | 0,5 | | 0,37 | 37 |
| 9 | 0,0 | 0,6 | 0,3 | 0,1 | | -0,23 | -23 |
| 10 | | 0,1 | 0,4 | 0,4 | | 0,28 | 28 |
| 11 | 0,2 | | 0,5 | | 0,3 | 0,11 | 11 |
| Yekun | | | | | | | -5,4 |

*Mənbə: Balans metoduna tətbiq etməklə aparılan sorğunun nəticələri əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Verilən şərtlərə, alınmış nəticəyə əsasən bu iqtisadi rayonda təsərrüfat sahiblərinin maliyyə resurlarından istifadə imkanlarını normal qəbul etmək mümkündür. Lakin bu imkanların daha artırılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi, sorğu nəticəsində gəldiyimiz qənaətə əsasən maliyyələşdirmə zamanı mövcud problemlərin - bank və bank olmayan kredit təşkilatlarının SKMF-in hesabına verilən kreditlər zamanı faizlərinin yüksək olması, girov təminatı kimi yalnız şəhərdə daşınmaz əmlak istənilməsi, subsidiyaların verilməsi zamanı sənədləşmə işlərində problemlərin olması və s.-nin aradan qaldırılması və şəffaflığın artırılması təmin edilməlidir.

## 4. Nəticə

Aparılan sorğu, edilmiş təhlillər nəticəsində aqrar sahədə təsərrüfat subyektlərinin maliyyə resurslarından yararlanma imkanlarının cari vəziyyətini müəyyən qədər göstərməyə çalışdıq. Tədqiqat nəticəsində dövlət tərəfindən göstərilən dəstək barədə təsərrüfat sahiblərinin yetərincə məlumatlı olduğu, bu yardımlardan faydalanmağa maraqlı olduqlarını, ümumilikdə şərtlərdə daha da yüngülləşdirməyi məqsədəuyğun saydıqlarını söyləmək mümkündür. Sorğu əsasında qeyd etmək mümkündür ki, təsərrüfat subyektləri əsasən subsidiya və lizinqin verilməsi şərtlərini daha münasib hesab edirlər. Lakin bu zaman təsərrüfat sahiblərinin əkin torpaqlarına dair sənədlərin tam olmamasının və lizinq məhsullarının illər üzrə dəyişdiyinin nəzərə alınmaması təsərrüfat sahiblərinin müəyyən narazılıqlarına səbəb olduğunu söyləmək mümkündür. Həmçinin sorğunun nəticəsinə əsasən fermerlərin öz şəxsi vəsaitlərini aşağı qiymətləndirdikləri, maliyyə çatışmazlıqlarının həlli üsulu kimi gördükləri kredit resurslarından faydalanmaq üçün şərtləri qənaətbəxş hesab etmədikləri, əsas tələb kimi faiz dərəcələrinin aşağı salınmasını prioritet məsələ hesab etmələri tamamilə aydın görünməkdədir. Ümumilikdə qiymətləndirmə sorğusu balans metodunun tətbiqi nəticəsində bizə təsərrüfat sahiblərinin müxtəlif maliyyə yardımlarından yararlanmaq imkanını vahid rəqəmlə ifadə etməyə imkan yaratmışdır. Gəncə-Qazax iqtisadi zonası üçün hesablanmış -5,4 neytral qiymətin alınması bu vəziyyəti müsbət istiqamətdə dəyişmək üçün qarşıda bir çox işlərin görülməsinə ehtiyacın olduğunun göstəricisidir. Fikrimizcə, apardığımız təhlil əsasında gəldiyimiz qənaətə əsasən sadalayacağımız təkliflərin üzərində işlənilməsi məqsədəuyğun olardı.

Aparılan tədqiqatdan gəldiyimiz qənaətə əsasən aqrar sahənin maliyyə təminatını yaxşılaşdırmaq, bu sahədə mövcud problemlərin aradan qaldırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi, fikrimizcə, məqsədəuyğun olardı:

- ❐ Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına verilən kreditlərin müvəkkil banklar tərəfindən deyil, yerlərdə yaradılacaq Sahibkarlığa Kömək Milli Fondunun nümayəndəlikləri tərəfindən verilməsi (*qiymətləndirmə za-*

*manı icra nümayəndələri təsərrüfatın ödəmə imkanlarına rəy vermə prinsiplərinin gözlənilməsi məsələsinə də baxıla bilər*);

- ❒ Aqrolizinqlə yanaşı aqroservis xidmətinin yaradılması (Sorğu zamanı əksəriyyətin aqrolizinq xidmətindən istifadənin daha bahalı olması, illər üzrə fərqli əkin nəticəsində fərqli texnikaya ehtiyacın olması səbəbindən aqroservis xidmətinə üstünlük verməsi;
- ❒ Bank və Bank olmayan kredit təşkilatı tərəfindən Sahibkarlığa Kömək Milli Fondu kreditlərin verilməsi zamanı nəzarətin gücləndirilməsi (*belə ki, şərtlər ciddi şəkildə ağırlaşdırılmasın*);
- ❒ Subsidiyaların verilməsinin çətinliklərin aradan qaldırılması məqsədilə sənədləşmə zamanı yüngülləşmə tədbirlərinin həyata keçirilməsi üçün qanun layihəsi yaxud normativ hüquqi sənəd hazırlanması.

## Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 11 aprel 2017-ci il tarixli, 2806 nömrəli Sərəncamı.
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi".
3. R.Nilsson. (2003). Business Tendency Surveys. A Handbook. Statistics Directorate, OECD. 2nd edition. Fransa 130 s. (*Biznes istiqamətli sorğular*).
4. M.Hüseynov. (2006). Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Bakı: Nurlar 304 s.
5. Aqrar elmin və təhsilin innovativ inkişafı: Dünya təcrübəsi və müasir prioritetlər. (2015). Beynəlxalq elmi-praktik konfransın materialları. Gəncə: ADAU 434 s.

**Гейдарова Куфия Али-Гейдар гызы**
доктрант, Научно-исследовательский Институт Экономических Реформ Министерства Экономики

## Аннотация

## Текущее состояние финансирования аграрного сектора

*Цель исследования* – анализ финансирования сельскохозяйственного сектора в текущем периоде, определение существующих проблем и изучение путей решения.

*Методология исследования* – сравнительный анализ, метод баланса, анализ обследование (*запрос*), метод индукции.

*Результаты исследования* – исследовано сследована возможность использования в сельскохозяйственном секторе финансовых ресурсов хозяйственных субъектов, особенно от финансовой помощи (*на примере экономической зоны Гянджа-Газах*), на основе результатов опросов методом баланса рассчитаны показатели выгоды экономического района на основе государственной помощи.

*Ограничения исследования* – отсутствие возможности привлечения всех главных экономических субъектов для участия в опросе в экономическом регионе Гянджа-Газах.

*Практическая значимость исследования* – возможность использования расчетного индекса в соответствующих анализах и исследованиях других экономических регионов республики.

*Оригинальность и научная новизна исследования* – анализ использования финансовых ресурсов хозяйствующими субъектами в аграрной сфере (*на примере экономической зоны Гянджа-Газах*) с помощью опроса методом баланса.

**Ключевые слова:** *финансовые ресурсы, аграрный сектор, запрос, балансовый метод.*

**Heydarova Kufiya Ali-Heydar kizi**
Ph.D student, İnstitute for Scientific Research and Economic Reforms

## Abstract

## Current state of financing of the agricultural sector

*Purpose* – analysis of financing of the agricultural sector in the current period, identification of existing problems and study of solutions.

*Design/methodology* – comparative analysis, balance method, analysis survey, induction method.

*Findings* – the possibility of using the financial resources, especially from the financial assistance of economic entities (*as examples of the Ganja-Gazakh economic zone*) in the agricultural sector has been explored, the indicators of the benefits of the state aid are calculated by precise indices based on the results of the survey with the balance method.

*Research limitations* – lack of opportunity to attract all major economic entities to participate in the survey in the economic region of Ganja-Gazakh.

*Practical implications* – the possibility of using a calculated index in the relevant analyzes and studies of other economic regions of the republic.

*Originality/value* – analysis of the use of financial resources by economic entities in the agrarian sphere (*as examples of the economic zone of Ganja-Gazakh*) by means of a poll using the balance method.

**Keywords:** *financial resources, agrarian sector, survey (request), balance method.*

**JEL Classification Codes:** Q12, Q14

Məqalə redaksiyaya daxil olmuşdur: 24.04.17.
Təkrar işləməyə göndərilmişdir: 01.05.17.
Çapa qəbul olunmuşdur: 29.09.17.